*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 387-391*
https://doi.org/10.62837/2024.3.387

**NAİLƏ SƏMƏDOVA**
***filologiya elmləri doktoru***
***AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu***
mailto:nailesamadova@yahoo.com

# NƏCƏF BƏY VƏZİROV ARXİVİNƏ BİR NƏZƏR
## (Nəcəf bəy Vəzirov - 170 )

Azərbaycanda faciə janrının əsasını qoymuş Nəcəf bəy Vəzirov Qarabağ ədəbi mühitinin yetirdiyi görkəmli şəxsiyyətlərdəndir. O, İbrahim xanın Ağa Məhəmməd şah Qacar tərəfindən edam edilmiş vəziri Seyyid Mirzə Əli Məhəmməd ağanın nəticəsidir. Nəcəf bəy Vəzirovun soyadı ulu babasının vəzifəsindən qaynaqlanır.

Şuşa şəhərində dünyaya göz açmış Nəcəf bəy Vəzirovun şəxsi arxivi [1] AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə olunur. Sənədlər 1949-cu ildə indiki Əlyazmalar İnstitutuna Nəcəf bəy Vəzirovun qohumları tərəfindən verilmişdir. 4 saylı fond 83 saxlama vahidindən ibarətdir və səkkiz bölmədə qruplaşdırılmışdır: Nəcəf bəy Vəzirovun əsərlərinin əlyazmaları, Nəcəf bəy Vəzirovun məktubları, Nəcəf bəy Vəzirovun bioqrafik sənədləri, təsviri sənədlər, ailə üzvlərinin materialları, çap kitabları və qəzetlər. Sənədlərin ilk və son tarixləri 1880-1929-cu illəri əhatə edir.

I bölmədə Nəcəf bəy Vəzirovun əsərlərinin avtoqraf nüsxələri saxlanılır [2]. Buraya yazıçının “Palıd”, “Keçmişdə qaçaqlar”, “Qəziyyə”, “Pul düşkünü Hacı Fərəc”, “Nə əkərsən, onu biçərsən”, “Dələduz”, “Naleyi-dərviş” və digər əsərləri daxil edilmişdir. Arxivdə təkcə “Qəziyyə” əsərinin iki, “Keçmişdə qaçaqlar”ın iki, “Pul düşkünü Hacı Fərəc”in beş, “Nə əkərsən, onu biçərsən” əsərinin altı əlyazma nüsxəsi mövcuddur. Əsərlər ümumi dəftərlərə yazılmış, üzərində ixtisar və əlavələr edilmişdir. Əsərlərdəki düzəlişlər bunların ilkin variant olduğu qənaətinə gətirir.

Yazıçının pyesləri dəfələrlə çap olunsa da, “Palıd” əsəri ərəb əlifbasından transfoneliterasiya edilərək 2013-cü ildə nəşr edilmişdir [16].

Nəcəf bəy Vəzirovun şəxsi arxivində iki məktubu saxlanılır [3]. Həsən bəy Zərdabiyə ünvanlanmış bu məktublar rus dilindədir, surətdir. Məktubların avtoqraf nüsxələri Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində saxlanılır. Sözsüz ki, Nəcəf bəy Vəzirov dövrün ziyalıları ilə yazışmışdır. Lakin yazdığı məktubların bir nüsxəsini arxivində saxlamadığından iki sənəddən savayı başqa məktub yoxdur.

III bölmədə Nəcəf bəy Vəzirovun bioqrafik sənədləri yerləşdirilmişdir [4]. Bu bölmə 4 hissədən ibarətdir. “Nəcəf bəy Vəzirovun şəxsi sənədləri” [5] adlı birinci hissədə yazıçının pasportu, ona verilən mandat, üzvlük kitabçası və dörd vəsiqə saxlanılır. Sənədlər rus dilindədir. İkinci hissədə Nəcəf bəy Vəzirovun ölüm kağızı və 12 teleqram [6] vardır. Bunlar Şamil Vəzirova atasının vəfatı ilə əlaqədar müxtəlif şəxslərdən göndərilmiş başsağlığı teleqramlarıdır.

Nəcəf bəy Vəzirovun ədəbi fəaliyyətinin 40 illik yubileyi münasibətilə göndərilən təbrik teleqramları III bölmənin üçüncü hissəsində saxlanılır [7]. Burada 57 sənəd vardır. Sonuncu hissəni Nəcəf bəy Vəzirovun ədəbi fəaliyyəti ilə əlaqədar materiallar təşkil edir ki, bura təliqələr və məramnamələr daxildir [8].

IV bölməni təsviri sənədlər təşkil edir [9]. Burada Vəzirovun 3 ədəd tək şəkli, Ağamalıoğlu adına Yer Quruluşu texnikumunun IV buraxılış tələbələrinin fotosu və Nəcəf bəyin tabutda şəkli vardır.

Ailə üzvlərinin materialları saxlanılan V bölmədə [10] Nəcəf bəy Vəzirovun vəfatı ilə əlaqədar oğlu Şamilə verilən vəsiqə, Azərbaycan Yer Quruluşu texnikumu direktorunun Şamil Vəzirova yazdığı məktub və Haşım bəy Vəzirovun İsmayıl əfəndiyə və Hacı Molla Əbdürrəhim Axundzadəyə ünvanladığı məktublar qorunur.

VI bölmədə müxtəlif materiallar: Muxtar Nəsirbəyovun məqaləsi və Əbdürrəhim bəy Haqverdiyevin "Bəxtsiz cavan" pyesindən pərakəndə parçalar saxlanılır [11]. Birinci əsər Azərbaycan dilində, ikinci əsər fars dilində əlyazmadır. Bu bölmədə yerləşdirilən və Nəcəf bəy Vəzirova aid müxtəlif materiallar – təliqə, protokol, iş planı, akt, siyahı və digər bu kimi sənədlər [12] "Nəcəf bəy Vəzirov arxivinin təsviri" kitabında [15] uyğun bölməyə daxil edilmişdir.

Nəcəf bəy Vəzirov arxivinin müəyyən hissəsini çap kitabları təşkil edir [13]. Burada Haşım bəy Vəzirovun "Səda" mətbəəsində dərc olunmuş "Ağa Kərim xan Ərdəbili", "Vay şələküm məəlləküm", Şuşada çap olunan "Daldan atılan daş topuğa dəyər" pyesləri, Hümmət Əlizadənin 1929-cu ildə nəşr olunmuş "Azərbaycan el ədəbiyyatı" kitabı saxlanılır. Bakıda Orucov qardaşlarının mətbəəsində Səfa cəmiyyətinin Azərbaycan və rus dillərində nəşr olunmuş nizamnaməsi isə Nəcəf bəy Vəzirovun həyat və yaradıcılığı haqqındadır. Vəzirovun "Müsibəti-Fəxrəddin", "Adı var, özü yox", "Ev tərbiyəsinin bir şəkli", "Pəhləvanani-zəmanə", "Yağışdan çıxdıq, yağmura düşdük" əsərləri "Təsnifat" adı ilə 1901-ci ildə Bakıda nəşr edilmişdir.

Arxivin sonuncu bölməsində qəzetlər yerləşdirilmişdir [14]. Burada "İqbal" qəzetinin 15 noyabr 1913-cü il, "Yeni yol" qəzetinin 12 iyul 1926-cı il, "Kəndli" qəzetinin 19 iyul 1926-cı il, "Cümhuriyyət" qəzetinin 1926-cı il, "Kommunist" qəzetinin 1926-cı il 11, 12 və 13 iyul sayları, eləcə də "İzvestiya" qəzetinin 23 aprel 1925-ci il, "Bakinski raboçi" qəzetinin 1926-cı il 11, 12, 13 iyul sayları, "Baku" qəzetinin 259-cu sayı, "Trud" qəzetinin 13 iyul 1926-cı il, "Zarya Vostoka" qəzetinin 18 iyul 1926-cı il tarixli nüsxələri qorunur.

Nəcəf bəy Vəzirov arxivindəki sənədlər təsvir olunaraq 2012-ci ildə nəşr olunmuşdur [15]. Kitabda təsvir edilən bəzi əsərlərin şifrələri və başlıqları arxivdəki sənədlərlə uyğun gəlmir. Məsələn, arxivdə saxlama vahidi 22-də Nəcəf bəy Vəzirovun pyeslərindən bəzi hissələrin 6 vərəqdən ibarət avtoqraf nüsxələri saxlanılır. Lakin təsvir kitabında bu saxlama vahidi altında qoşa vərəqdən ibarət adsız dram olduğu göstərilmişdir [15, s.8].

Saxlama vahidi 21-də "Naleyi-Dərviş", "Təzə əsr" adlı əsərlərin əlyazmaları saxlanılır. Təsvir kitabında isə bu saxlama vahidi altında yerləşən əsərin başlığı "Əvvəlinci məclis" göstərilmişdir, eləcə də həcmi, başlandığı və bitdiyi cümlələr fərqli şəkildə verilmişdir [15, s.9].

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 387-391*
Muxtar Nəsirbəyovun saxlama vahidi 62-də qorunan məqaləsinin təsvir kitabında başlığı "Vəzirov adlı şəxsə aiddir" [15, s.98], Əbdürrəhim bəy Haqverdiyevin "Bəxtsiz cavan" əsərindən saxlama vahidi 63-də olan hissələrin isə başlığı təsvir kitabında "Adsız və müəllifsiz (pərdəli pyes)" [15, s.94] kimi verilmişdir.

Bütün bu fərqliliklərə, çatışmazlıqlara baxmayaraq, "Nəcəf bəy Vəzirov arxivinin təsviri" kitabı böyük dramaturqun şəxsi arxivi haqqında ümumi məlumat əldə edilməsində əhəmiyyətli sayıla bilər.

Görkəmli dramaturq, milli teatrımızın yaradılmasında və inkişafında böyük xidmətləri olan Nəcəf bəy Vəzirovun AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılan şəxsi arxivindəki sənədlər onun həyat və fəaliyyətinin, yaradıcılıq əlaqələrinin öyrənilməsi, eləcə də əsərlərinin əlyazma və nəşr nüsxələrinin araşdırılması baxımından səhih mənbələrdir.

## Ədəbiyyat:

1. AMEA ƏYİ, fond 4, 83 saxlama vahidi.
2. AMEA ƏYİ, f.4, s.v.1-22.
3. AMEA ƏYİ, f.4, s.v.23.
4. AMEA ƏYİ, f.4, s.v.24-54.
5. AMEA ƏYİ, f.4, s.v.24-30.
6. AMEA ƏYİ, f.4, s.v.31-32.
7. AMEA ƏYİ, f.4, s.v.33-46.
8. AMEA ƏYİ, f.4, s.v.47-54.
9. AMEA ƏYİ, f.4, s.v.55-57.
10. AMEA ƏYİ, f.4, s.v.58-61.
11. AMEA ƏYİ, f.4, s.v.62-63.
12. AMEA ƏYİ, f.4, s.v.64-65.
13. AMEA ƏYİ, f.4, s.v.66-73.
14. AMEA ƏYİ, f.4, s.v.74-83.
15. Ələkbərova Ə. Nəcəf bəy Vəzirov arxivinin təsviri. Bakı: MK nəşriyyatı, 2012.
16. Vəzirov N. Palıd. Nəşrə hazırlayan: filologiya üzrə fəlsəfə doktoru Mehri Məmmədova. Bakı: Elm və təhsil, 2013.

**NAILƏ SƏMƏDOVA**

## NƏCƏF BƏY VƏZİROV ARXİVİNƏ BİR NƏZƏR
**(Nəcəf bəy Vəzirov – 170)**
**Xülasə**

Qarabağ ədəbi mühitinin yetirdiyi görkəmli dramaturq Nəcəf bəy Vəzirovun şəxsi arxivi AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda saxlanılır. Arxivə yazıçının əsərlərinin əlyazmaları, məktubları, bioqrafik və təsviri sənədlər, müxtəlif şəxslərin materialları, çap kitabları və qəzetlər daxildir.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 3, 2024*
*Səh. 387-391*
Arxivdəki sənədlər bölmələr üzrə qruplaşdırılmışdır və hər bir sənədin saxlanıldığı qovluqda saxlama vahidi, həcmi, hansı dildə və əlifbada yazıldığı göstərilmişdir.

Məqalədə hər bir bölmə və bölmədaxili hissələrdə saxlanılan sənədlər haqqında məlumat verilmişdir. Eləcə də Nəcəf bəy Vəzirovun 2012-ci ildə nəşr edilmiş təsviri kitabında bəzi sənədlərin başlıqlarının əlyazmadan fərqli yazılışı və bəzi sənədlərin müvafiq bölmələrə daxil edilməsi nəzərə çatdırılmışdır.
***Açar sözlər:*** Vəzirov, əlyazma, arxiv, avtoqraf, sənəd

**NAILA SAMADOVA**

## A GLANCE AT THE NAJAF BEY VAZIROV ARCHIVE
## (Najaf Bey Vazirov – 170)
### Summary

The personal archive of the distinguished playwright Najaf Bey Vazirov, originating from the Karabakh literary milieu, is housed at the Institute of Manuscripts named after Muhammad Fuzuli of ANAS. Within this archive are manuscripts of the writer's works, letters, biographical and descriptive records, materials from various individuals, as well as a collection of printed books and newspapers.

The documents in the archive are grouped by sections, and the folder where each document is stored indicates its storage unit, volume, and language and alphabet.

The article offers insights into documents stored in each section and subsection. Moreover, in Najaf Bey Vazirov's descriptive book published in 2012, certain documents were incorporated into the respective sections, with an observation that the titles of some documents were written differently from the manuscript.
***Keywords:*** Vazirov, manuscript, archive, autograph, document

**НАИЛЯ САМЕДОВА**

## ВЗГЛЯД НА АРХИВ НАДЖАФ БЕКА ВЕЗИРОВА
## (Наджаф бек Везиров – 170)
### Резюме

Личный архив представителя карабахской литературной среды, выдающегося драматурга Наджаф бека Везирова хранится в Институте Рукописей имени Мухаммада Физули НАНА. В архиве представлены рукописи произведений писателя, письма, биографические и фото документы, материалы различных лиц, изданные произведения и газеты.

Документы в архиве сгруппированы по разделам, а в папке, где хранится каждый документ, указаны единица хранения, объем, алфавит и язык, на котором написан документ.

В статье представлена информация о документах, хранящихся в каждом разделе и подразделах. Также было отмечено, что в книге описания архива Наджаф бека Везирова, изданной в 2012 году, названия некоторых документов были написаны иначе, чем в рукописе, а некоторые документы были включены в соответствующие разделы.

***Ключевые слова:*** Везиров, рукопись, архив, автограф, документ

***Filologiya elmləri doktoru Raqub Kərimov tərəfindən çapa tövsiyə olunmuşdur.***